# Dünya dəyişir və yeni reallıqlar artıq qapını döyür

## *Türk dövlətləri bütün çağırışlara birlikdə cavab verəcəklər*

**Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**



**Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyevi qəbul edərkən səsləndirdiyi və qonaqdan eşitdiyimiz fikirlər türk dünyasının gələcəyi üçün nikbin düşünməyimizə əsas verdi. Fikrimizcə, bu görüş qarşımızda duran bir sıra məsələlərin həli üçün zəmin yarada biləcək. Prezidentin "bizim təşkilat" adlandırdığı Türk Dövlətləri Təşkilatı qarşımızda duran vəzifələrin həyata keçirilməsi üçün, sözün həqiqi mənasında təşkilatlanır.**

Xatırladaq ki, bu gün Türkiyə Cümhuriyyətində yaşayan Anadolu türklərindən sonra dünyada sayca ən çox olan türk xalqı azərbaycanlılardır. Onlar dünya türklüyünün beşdə birindən çoxunu təşkil edirlər. Elə ümummilli liderin dünya azərbaycanlılarının birliyinə, mütəşəkkilliyinə nail olmaq üçün apardığı ardıcıl mübarizə türk birliyi, mütəşəkkilliyi uğrundakı mübarizənin fəal tərkib hissəsi kimi qəbul edilir. Ulu öndərin böyük uzaqgörənliklə yaratdığı "Azərbaycanda Atatürk Mərkəzi" də bu mühüm amilə əsasən ərsəyə gətirilib.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda təməli qoyulan, ötən il İstanbulda Türk Dövlətləri Təşkilatı adlandırılan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası xalqlarımızın və dövlətlərimizin maraqlarına cavab verən kifayət qədər uğurlu addımlar atmışdır. Prezident bu qurumun rəhbərini qəbul edərkən çoxsaylı məqamlardan və müsbət tendensiyalardan söz açdı. Fikrimizcə, həmin məqamların ən önəmlisi zamanın qarşımıza yeni vəzifələr qoyduğu barədə söylənilən fikirlər idi.

Dövlət başçımız xüsusilə vurğuladı ki, dünya dəyişir, yeni təhdidlər və yeni çağırışlar, necə deyərlər, artıq qapını döyür: "Buna görə, düşünürəm ki, iqtisadi əməkdaşlıqla bərabər, nəqliyyat, humanitar və başqa sahələrdə əməkdaşlıq prioritetlərdən biri olacaq. Öz tərəfimdən demək istəyirəm ki, Azərbaycan Türk dünyasının birliyini möhkəmləndirmək üçün bundan sonra da nə mümkündürsə edəcək".

Mən bu fikirləri eşidəndə dövlət başçımızın Türkiyəyə, Qazaxıstana, Özbəkistana, Türkmənistana və Qırğızıstana səfərləri, eləcə də həmin ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri zamanı aparılan danışıqları xatırladım. Həmin danışıqların, aparılan müzakirələrin hamısının gündəliyində nəqliyyat-logistika məsələləri də var idi. Zaman bizdən məhz bunu – iqtisadi imkanları əlaqləndirmək üçün ən mühüm variant olan nəqliyyat şəbəkəsinin genişləndirilməsini və müasirləşdirilməsini tələb edir.

Elə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar da bizim bu məqsədə çatmağımıza zəmin yaradıb. Türk dünyasının bütün liderləri və Avrasiyada iqtisadi inkişafın tərəfdarı olan dünya siyasətçiləri birmənalı olaraq söyləyirlər ki, Zəngəzur nəqliyyat dəhlizinin açılması Avropa və Asiyanın əksər dövlətlərinin maraqlarına cavab verəcək.

Bundan başqa, dövlət başçımız həmin görüşdə təəssüflə qeyd etdi ki, tarixin müxtəlif mərhələlərində Türk dünyası fraqmentləşdirilib. Yəni tam olaraq görünə bilmirik, qüvvələrimizi tamamilə birləşdirmək imkanımız yoxdur. Bu isə bədxahlarımızın və türkofobiyadan əziyyət çəkən qüvvələrin işinə yarayır.

Xatırladaq ki, Türk dünyası Türk Dövlətləri Təşkilatının üzvləri olan milli dövlətlərin sərhədlərindən qat-qat genişdir. Elə dövlət başçımız da bu məqamları nəzərə alaraq qeyd edir ki, bizim humanitar əlaqələrimizə, insanlar arasında, geniş dünya coğrafiyasında yaşayan türkdilli xalqların nümayəndələri ilə əlaqələrə gələcəkdə də ehtiyac olacaq.

Məsələni bir az da konkretləşdirsək, deyə bilərik ki, Azərbaycan öz tərəfindən təşkilata daxil olan ölkələrin birliyini möhkəmləndirmək üçün hər şeyi edib və edəcək. Amma bu sahədə görüləcək işlər hələ çoxdur. Təkcə Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın sayı ölkəmizdə yaşayanlardan bir neçə dəfə çoxdur. Pezident xatırladır ki, onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

Zamanın əsas tələb və çağırışlarından biri də məhz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara, həmçinin bizim qardaş türk dövlətlərinin digər xalqlarının dövlət sərhədlərinin hüdudlarından kənarda yaşayan çoxsaylı nümayəndələrinə kömək etməkdir. Öz milli dövlətindən uzaqda yaşayan türklərin hərtərəfli inkişafı, onların ana dilini, ənənələrini, mədəniyyətini qoruyub saxlamaları, dövlətçilik prinsiplərinə sadiq olmaları bu gün həmişəkindən daha çox önəm kəsb edir.

Cənab Bağdat Amreyevin dedikləri isə ürəyimizdə xeyli nikbinlik hissi yaradır: "Biz Sizin rəhbərliyinizlə, həqiqətən, Türk birliyi infrastrukturunu yaratmağa nail olmuşuq. Siyasi əməkdaşlıq reallığa çevrilib, iqtisadi əməkdaşlıq, nəqliyyat sahəsində və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq inkişaf edir. Mədəni-humanitar əməkdaşlıq bizim münasibətlərimizin əsasıdır".

Baş katib məmnunluqla qeyd etdi ki, biz hətta təhlükəsizlik sahəsində də əməkdaşlığa başlamışıq. Bu yaxınlarda ölkələrimizin təhlükəsizlik şuraları rəhbərlərinin görüşü keçirilib. Əlavə etdi ki, bizim xüsusi xidmətlərimiz işləyir. Biz bu sahə üçün yaxşı baza yaratmışıq. Ölkələrimiz arasında həm ikitərəfli əsasda, həm də artıq daha geniş əsasda hərbi-texniki əməkdaşlığı və hərbi əməkdaşlığı nizamlamışıq.

**İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"**